**Respublika.** - 2024.- 12 oktyabr. - № 224. - S. 1,8.

# Ölkəmiz öz haqlı mövqeyindən dönməyəcək

**Nəzrin Eldarqızı**

**Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixin ən əlamətdar və mühüm uğurlarını qazanaraq beynəlxalq arenada öz mövqeyini möhkəmləndirib. Bu nailiyyətlər ölkəmizi dünya səhnəsində tanıtmış, Azərbaycanın regional və beynəlxalq tədbirlərdə uğurlu ev sahibliyi təcrübəsini formalaşdırmışdır. Ölkəmiz beynəlxalq miqyaslı tədbirlərin təşkilində artıq böyük nüfuz sahibidir. Bunun ən son təsdiqi COP29 - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilməsi barədə qərarının qəbul edilməsidir. 2023-cü il dekabrın 11-də COP28-in plenar iclasında BMT-nin 197 ölkəni bir araya gətirən iqlim tədbirinin növbəti sessiyasının Azərbaycanda keçirilməsi qərarı dünya dövlətlərinin respublikamıza olan yüksək etimadını və münasibətini bir daha təsdiq edir. Bu qərar yalnız ekoloji məsələlərə deyil, həm də ölkəmizin beynəlxalq nüfuzuna verilən dəyərin göstəricisidir.**

Qlobal siyasətdə və iqlim mübarizəsində mühüm yer tutan COP29 dünyanın hər yerindən dövlət və hökumət başçılarını, diplomatları, ekoloqları, elmi dairələri bir araya gətirərək iqlim dəyişmələri ilə mübarizə yollarını müzakirə edəcək. COP tədbirləri tarixən dünyanın ən vacib toplantılarından biri hesab edilir, çünki iqlim mövzusu təkcə ekoloji yox, həm də sosial, iqtisadi və siyasi əhəmiyyət daşıyır. 1995-ci ildə ilk dəfə Berlində keçirilmiş COP BMT-nin beş regional qrupunun rotasiya qaydasında ev sahibliyi etdiyi qlobal tədbirlərdən biridir. Bu il isə Şərqi Avropa qrupu növbəti təşkilatçı oldu və yekdilliklə Azərbaycanın COP29-a ev sahibliyi etməsi qərara alındı. Şərqi Avropa ölkələrinin bu dəstəyi ölkəmizin etibarlı, güclü tərəfdaş kimi dünya arenasında təsdiqini tapdığı uzunmüddətli diplomatik uğurların nəticəsidir.

COP29-un Bakıda keçirilməsi Azərbaycanın "yaşıl enerji" sahəsindəki siyasətinə verilən qlobal dəstəyin bariz göstəricisidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasət sayəsində ölkəmiz təkcə iqtisadi cəhətdən deyil, həm də ekoloji sahədə güclü inkişaf nümayiş etdirir. Azərbaycan Vətən müharibəsində qazandığı tarixi Zəfərlə öz ərazi bütövlüyünü bərpa etməklə yanaşı, beynəlxalq arenada güclü dövlət kimi mövqeyini daha da möhkəmləndirib. Bu qələbə ölkəmizin siyasi, iqtisadi və diplomatik sahələrdə qazandığı uğurların daha da genişlənməsinə yol açıb. Son illərdə Azərbaycan bərpaolunan enerji mənbələrinin inkişafı istiqamətində ciddi addımlar atmış, enerji keçidi prosesində böyük irəliləyişlərə nail olmuşdur. Bu, həm daxili enerji təhlükəsizliyini gücləndirir, həm də qlobal səviyyədə iqlim dəyişmələri ilə mübarizədə müasir texnologiyaların tətbiqinə şərait yaradır. Ölkəmizdə bu sahədə aparılan işlər, xüsusilə bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçid və ekoloji sabitliyin qorunması üçün həyata keçirilən layihələr beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılacaq. Azərbaycan bu tədbir vasitəsilə dünyaya həm təmiz enerji sahəsindəki nailiyyətlərini nümayiş etdirəcək, həm də iqlim dəyişmələri ilə mübarizədə regional lider rolunu təsdiq edəcək. COP29-un Bakıda keçirilməsi ölkəmizin beynəlxalq mövqeyini möhkəmləndirən yeni bir mərhələdir və Azərbaycanın dayanıqlı inkişaf siyasətini geniş auditoriya qarşısında uğurla təqdim etməsinə şərait yaradacaq.

Azərbaycanın dayanıqlı inkişaf və ekoloji sabitlik istiqamətində atdığı addımlar yaxşı bir nümunədir. Ölkəmiz 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmaqla "yaşıl enerji"yə keçid sahəsində qlobal liderlərdən birinə çevrilməyi qarşısına məqsəd qoyub. Bu strateji addım Azərbaycanın ekoloji məsələlərə verdiyi önəmi və təbii sərvətlərin qorunmasına yönəldilən iradəsini açıq şəkildə göstərir. Eyni zamanda Azərbaycan əsrin ortasına qədər karbon emissiyalarını 1990-cı illə müqayisədə 40 faizədək azaltmağı hədəfləyir. Bu, ölkənin iqlim dəyişmələri ilə mübarizədə beynəlxalq tövsiyələrə uyğun fəaliyyət göstərdiyini təsdiqləyir. Artıq Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya ilə birlikdə Qara dənizin dibi ilə sualtı kabel vasitəsilə Avropaya "yaşıl enerji" ixracını nəzərdə tutan mühüm layihəni icra edir. Bu layihənin həyata keçirilməsi ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni artıracaq və onu qitənin əsas təmiz enerji təchizatçılarından birinə çevriləcək. Bu layihə təkcə enerji təminatının diversifikasiyasına xidmət etməklə qalmayacaq, həm də Avropanın enerji təchizatında etibarlılıq və sabitlik baxımından böyük əhəmiyyət daşıyacaq. Azərbaycanın zəngin enerji potensialı, xüsusən də bərpaolunan enerji mənbələri bu sahədə böyük perspektivlər vəd edir. Külək, günəş və su enerjisindən geniş şəkildə istifadə etmək üçün yaradılan şərait ölkəmizin qlobal ekoloji gündəminə töhfədir. Qara dəniz kabeli layihəsi icra olunduqdan sonra Azərbaycan yalnız öz regionunda deyil, qlobal miqyasda "yaşıl enerji" təchizatçısına çevrilməklə, həm də dünyanın enerji xəritəsini

dəyişdirəcək. Bu layihə həm Azərbaycan iqtisadiyyatının gələcək inkişafı, həm də qlobal iqlim dəyişmələri ilə mübarizə baxımından əhəmiyyətli bir mərhələ olacaq. Respublikamız təbii sərvətlərindən səmərəli istifadə etməklə həm öz gələcəyini təmin edir, həm də dünya üçün nümunəvi bir "yaşıl enerji" modelini ortaya qoyur. Avropanın enerji tələbatını təmiz enerji ilə təmin etmək məqsədilə atılan bu addımlar Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirəcək və rəsmi Bakını bu sahədə əsas tərəfdaşlardan birinə çevirəcək.

Bir məqamı da nəzərə çatdıraq ki, ölkəmizə qarşı son dövrlərdə beynəlxalq təzyiqlərin artması və bəzi dövlətlərin riyakar siyasəti açıq-aydın görünür. Bu proses əslində gözləniləndir və təəccüblü deyil, çünki keçmişdə də bənzər hadisələr müşahidə olunub. Hər dəfə Azərbaycan beynəlxalq səviyyədə əhəmiyyətli tədbirə ev sahibliyi etməyə hazırlaşanda müxtəlif qlobal aktorlar provokasiya və təxribat cəhdləri ilə prosesə mane olmağa çalışıblar. Ancaq rəsmi Bakı artıq bu kimi təzyiqlərə uğurla cavab verir. Maraqlıdır, belə cəhdlər zamanı Ermənistan kartı daim qlobal aktorların əlində bir vasitəyə çevrilir. Xüsusilə, Fransa Azərbaycanın beynəlxalq arenada artan nüfuzunu və COP29 kimi vacib bir tədbirə ev sahibliyi etməsini həzm edə bilmir. Yelisey Sarayı açıq şəkildə öz narahatlığını göstərir. Parisdə keçirilən Yay Olimpiya Oyunlarında yaşanan biabırçı təşkilatçılıq və uğursuzluq Fransanın beynəlxalq arenada aldığı zərbələrdən biridir. Azərbaycanın COP29-u mükəmməl və layiqli şəkildə keçirəcəyindən çəkinən Fransa indidən ölkəmizə qarşı mənfi rəy yaratmağa çalışır. Bütün bu çirkin oyunlara baxmayaraq, Azərbaycan öz mövqeyindən geri çəkilməyəcək. COP29-a uğurla ev sahibliyi etmək Azərbaycanın güclü dövlət imicini bir daha təsdiq edəcək və beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcək.